

Elşən Mirişli
Gəncə şəhəri, tarixçi

# 400 çadırla qurulan Dünya Dövləti-Osmanlı İmperatorluğu

(əvvəli ötən sayımızda)

## II Əbdülhəmid xanın Səltənəti

***Konstitusiyaya əsaslanan idarəçilik forması qurmaq istəyən və bu səbəblə Sultan Əbdüləziz və Sultan V Muradı taxtdan endirən Mithat Paşa və dostları ilə razılığa gələn II Əbdülhəmid xan 31 avqust 1876-cı ildə cümə axşamı günü taxta çıxdı. Osmanlı İmperatorluğu dərin böhran içərisində idi. Sultan Əbdüləziz (1861-1876) dövründə başlayan bolqar və boşnaq üsyanlarına Sultan V Murad dövründə serb və alban ayaqlanmaları da qoşuldu.Bu üsyanları dəstəkləyən Rusiya imperiyası "Şərq məsələsi" nin həllində maraqlı idi. Dövlət isə düşdüyü maliyyə çətinlikləri səbəbi ilə üsyanları yatıra bilmirdi. Sultan Əbdüləzizin hakimiyyətinin son illərində Rusiyanın Osmanlı imperatorluğundakı adamı Mahmud Nədim Paşanın (Nədimov) xarici borcların faiz dərəcələrini aşağı endirmək qərarı isə Avropa dövlətlərində böyük etirazlara səbəb olmuşdu. Osmanlı İmperatorluğunun Avropadakı müttəfiqləri Osmanlı dövləti əleyhinə çevrilmişdi.***

Bu şəraitdə taxta çıxan Sultan Əbdülhəmid Osmanlı tarixində o günə qədər gürülməmiş bir çox addımlar atdı. Əsgərlərlə, sadə xalq ilə üləmadan bir çox alimlə görüşlər keçirir,Yıldız sarayında iftar gecələri təşkil edirdi. Hərbi xəstəxanada Balkan cəbhəsindən gələn yaralı əsgərləri şəxsən ziyarət edərək hədiyyələr paylayır, sədrəzəm və nazirlərlə birlikdə məcidləri gəzərək əhaliylə birlikdə namaz qılırdı.

Yeni sultanın bu kimi hərəkətləri əhali və ordu mənsubları arasında məmnunluq hissi yaratdı. Hamıda və xüsusilə də orduda yüksək əhval-ruhiyyə müşahidə olundu. Serbiya və Çernoqoriyanın Osmanlı İmperatorluğunun sərhədlərində yerləşən türk ordusuna basqınları üzərinə, Osmanlı hökuməti Serbiyadan bu hərəkətlərini 9 iyun 1876-cı ildə izah etməsini istədi. Cavab əvəzinə Serbiya savaşa girişdi (1 iyul 1876).Bir gün sonra da Çernoqoriya,müttəfiqi Serbiyanın yanında yer aldığını İstanbula bildirdi. Serbiyanın ordusu 150.000 əsgərdən ibarət idi. Çernoqoriya (Qaradağ) ordusu 50 min civarında idi. Osmanlı qüvvələri beş birlik halında təşkilatlanmış olub bunlardan üçü Serbiyaya ikisi də Çernoqoriyaya qarşı səfərə məmur edilmişdir.Osmanlı ordusu 100 min əsgərdən ibarət idi.Rus generalı Çernoyefin komandanlıq etdiyi serb ordusu məhv edildi. Serblərlə və Çernoqoriya ilə gedən döyüşlərdə Osmanlı ordusu önəmli qələbələr qazandı.Rus çarını hərb hədəsi ilə savaş durduruldu. Rusiyanın göndərdiyi ultimatom səbəbilə serblərlə 3 aylıq atəşkəs imzalandı. İngiltərə isə "Şərq məsələsi"-nin İstanbulda toplanacaq bir konfransda müzakirə olunmasını istədi.

Konfransın toplanmasına etiraz olaraq Mehmed Rüşdü Paşa istehfa verdiyini açıqladı. Sultan Əbdülhəmid Mehmed Rüşdü Paşanın istefasını qəbul etmədi. Serblərlə sülh imzalanmasını istəməyən bir qrup iğtişaşçı isə Mithat Paşa və dostlarını öldürüb, Sultan Əbdülhəmidi taxtdan endirməyə cəhd etdilər.400 nəfər gözaltına alındı. Konstitusiya hazırlığı üçün müsəlman və qeyri-müsəlmanlardan bir komitə quruldu. Mithat Paşa ilə anlaşmazlığa düşən sədrəzəm Mehmed Rüşdü Paşa istehfa etdi.19 dekabr 1876-cı ildə Mithat Paşa sədrəzəmliyə gətirildi.4 gün sonra isə İngiltərənin təklifini qəbul edən dövlətlər İstanbuldakı konfransa toplandı. Həmin gün 101 top atəşi ilə Osmanlı İmperiyasının ilk konstitusiyası qəbul edildi (23 dekabr 1876).

***Tələm-tələsik hazırlanan İstanbul konfransının toplandığı gün elan edilən konstitusiya ilə, qərb dövlətlərinin saysız istəklərinin qarşısını almağa cəhd edildi.Ancaq qərb dövlətləri buna əhəmiyyət vermədi. Rusiya İmperatorluğu tərəfindən hazırlanan təkliflər qəbul edilməsi üçün Sultan II Əbdülhəmidə təqdim edildi. Osmanlı İmperiyasının suverenliyini təhlükəyə atan bu təkliflər 18 yanvar 1877-ci ildə toplanan 180 nəfərlik Məclis-i Ümumidə müzakirə edilərək səsvermə yolu ilə rədd edildi.***

## Ahmed Şefik Mithat Paşa (1822-1884)

Osmanlı İmperiyasında azadlıq yolunda qurban gedənlərin ən dəyərlisi və ən görkəmlisi Mithat Paşadır.Birinci məşrutiyyətin meydana gəlməsində başlıca rol oynayaraq Türk demokratik hərəkatının bünövrəsini qoymuşdu. Osmanlı İmperiyasının siyasi tarixində dönüş nöqtələrini təşkil edən bir çox hadisələrin yaranmasında və həyata keçirilməsində əsas sima olmuşdur.

Sultan Əbdüləzizin taxtdan endirilib V Muradın taxta çıxarılması,V Muradın taxdan endirilib II Əbdülhəmidin taxta çıxarılmasını təşkil etmişdi. Sultan II Əbdülhəmidə kostitusiyanın elan etdirilməsi onun rəhbərliyi altında olmuşdur.

Mithat Paşanın rəhbərliyi altında Türk ziyalılarının apardığı konstitusiyalı monarxiya rejimi və demokratiya üçün mübarizə, əlbəttə,nəticəsiz qalmamışdır.

Mithat Paşa Ruscuqlu Hacı Hafiz Mehmed Əşrəf bəyin oğludur.12 yaşından Sədarət məktub şöbəsində katib köməkçisi kimi işə başlamışdır.Bu şöbədə özünü sevdirmiş bə addım-addım yüksəlmişdi. İyirmi səkkiz yaşındaykən onu Suriya əyalətini təftiş eləməyə göndərmişdilər. Oradakı dəqiq və səvadlı işi adını daha da şöhrətləndirmişdi.

1858-ci ildə dincəlmək üçün Parisə getmiş və orada düşüncələrinin üfüqü daha da genişlənmişdi. Orada azadlığın yollarını öyrənmişdi.

39 yaşındaykən vəzir rütbəsi ilə Niş valisi təyin edilmişdi. Onun üstün cəhətlərini Nişdəki xidmətləri təsdiq etmişdi. Artıq bu tarixdən 4 il davam edən valiliyi boyu onun bacarıqlı dövlət xadimi olması sübut edilmişdi.Silistrə və Vidin Nişə qatılmış və bu "Dunay əyalətində" böyük canlanma yaratmışdı.Öz ağıllı işləriylə bu əyaləti çiçəkləndirmişdi.Bugünki Bolqarıstandan daha böyük olan Dunay əyalətində üç il yarım içində 3.000 km yol,1400 körpü,yüzlərlə məktəb tikdirmişdi. Eyni zamanda Ziraat Bankası və Tarım Kredi Kooperativlərinin təməli sayılan Məmləkət Sandıklarını quran kişiydi. Kredit məsələlərini yoluna qoyub bu yolla fabriklər, dərnəklər, kooperativlər tikərək əyaləti möcüzə sayıla biləcək bir hala gətirmişdi.Bundan sonra işlədiyi hər əyalətdə də bu xeyirli işlərini davam etdirmişdir.

***Midhat Paşanın Tuna valiliyindən ayrılmasının ardından 1868-ci ildə Bolqar üsyanı meydana gəldi.Bolqar üsyançılar Tuna (Dunay) çayını keçib Ziştovi yaxınına irəlilədilər. Sultan Əbdüləziz üsyanın basdırılması görəvini Mithat Paşaya verdi. Mithat Paşa iyirmi gündə üsyançıları məhv etdi və İstanbula döndü.***

Mithat Paşa sərhədləri Mosul və Bəsrəni də içinə alan Bağdad vilayətini üç il idarə etdi. Eyni zamanda 6-cı Ordu komandanı oldu. Ordu komandanı kimi Kuveyti Osmanlı idarəsinə aldı.

Sədrəzəm, Ədliyyə Naziri və Dövlət Şurasının sədri işləmişdir. İki dəfə Osmanlı imperatorluğunun sədrəzəmi olmuşdu.

**31 iyul 1872- 19 oktyabr 1872.**
**19 dekabr 1876 -6 fevral 1877.**

Mithat Paşa İngiltərəyə, konstitusiyanın tam tətbiq edilməsi şəraitində qərb dövlətləri ilə razılığa gələcəyini bildirdi. İngiltərə hökuməti isə Londonda yeni bir konfransın toplanması üçün danışıqlara başladı. Mithat Paşa istər bu hərəkətləri, istərsə də Osmanlı sülaləsini devirərək öz ailəsini taxta çıxarmaq istəməsi haqqında yayılan şayələr səbəbilə vəzifədən alınaraq 5 fevral 1877-ci ildə ölkədən sürgün edildi. Onu Sultan Əbdüləzizin taxtdan salınmasında təqsirləndirib məhkəməyə vermişdilər. Məhkəmə onu Taifə sürgün etmişdi.Yurda böyük xidmətlər vermiş bu qiymətsiz vətənpərvəri və azadlıq qəhrəmanını II Əbdülhəmid Taifdə boğduraraq öldürtmüşdü. Mithat Paşa ilk Osmanlı anayasası olan Qanuni Əsasiyi hazırlayan qurumun başkanı olmuşdu.Qanuni Əsasidə Sultanın yetkiləri sınırlandırılmış, Məclisin üstünlüyünə dayanan yeni bir sistem qurulmuşdur,konstitusiyada edilən dəyişikliklə məclis qarşısında hökumətin səlahiyyətləri genişləndirilmişdi.Teokratik dövlət quruluşu dəyişdirilməmişdi.

Sultan Əbdülhəmid konstitusiyanın yaradıcısı olan Mithat Paşanı ölkədən qovsa da, konstitusiyalı idarəçilik formasından imtina etmədi. Konstitusiyaya əsasən seçimlər növbəti 3 ay içində keçirildi və 19 mart 1877-ci ildə məclis şəxsən sultan tərəfindən açıldı. 141 üzvdən ibarət olan Osmanlı İmperatorluq tarixinin ilk parlamentində 115 nəfər millət vəkili seçildi, qalan 26 nəfər isə sultanın əyanlarından məclisə seçilmişdi. Millət vəkillərinin 69-u müsəlman, 46-sı isə qeyri-müsəlman idi.



*Yeni sultanın bu kimi hərəkətləri əhali və ordu mənsubları arasında məmnunluq hissi yaratdı. Hamıda və xüsusilə də orduda yüksək əhval-ruhiyyə müşahidə olundu. Serbiya və Çernoqoriyanın Osmanlı İmperatorluğunun sərhədlərində yerləşən türk ordusuna basqınları üzərinə, Osmanlı hökuməti Serbiyadan bu hərəkətlərini 9 iyun 1876-cı ildə izah etməsini istədi. Cavab əvəzinə Serbiya savaşa girişdi (1 iyul 1876).Bir gün sonra da Çernoqoriya,müttəfiqi Serbiyanın yanında yer aldığını İstanbula bildirdi*

## Rus-Türk Müharibəsi (1877-1878)

İngiltərənin təşəbbüsü ilə toplanan London konfransı hazırladıqları yeni təklifləri 1877-ci ilin 31 martında imzalayaraq qəbul edilməsi üçün 3 apreldə Sultan II Əbdülhəmidə təqdim etdilər. Ağır şərtlərdən ibarət bu protokol sultanın istəyi ilə məclisdə müzakirə edildi və yenə qəbul edilmədi.Vəziyyət 12 apreldə hökumət tərəfindən qərb dövlətlərinə bildirildi.

***Beləliklə, əsas istəyinə çatan Rusiya İmperiyası 24 aprel 1877-ci ildə Osmanlı İmperiyasına müharibə elan etdi.Balkanlarda Rus qüvvələri 250.000, Anadolunun doğu-quzeyindəkilər isə 160.000 əsgərdən ibarət idi. Rumınya krallığı 60.000-dən çox olan ordusu ilə ruslar tərəfdən Osmanlı İmperatorluğuna hərb elan etdilər. Rus ordularına qarşı Osmanlı İmperatorluğu cəmi 287.000 əsgər çıxara bildi.Bu ordunun təlim görmüş əsgərləri cəmi 150.000 qədər idi. Rumınlar, serblər, bolqarlar və albanlar Rusiyanın yanında yer aldılar. Maliyyə və hərbi baxımdan olduqca pis vəziyyətdə olan Osmanlı İmperiyası xaricdən də dəstək ala bilmədi.Plevnədə Qazi Osman Paşanın,şərq cəbhəsində isə Ahmed Muhtar Paşanın fövqəladə zəfərləri belə müharibənin gedişatını düzəldə bilmədi.***

(ardı var)